**UOT:** 9301
**KBT:** 63.3(5 e)3

# Azərbaycanın elm tarixi üzrə yazılı qaynaqları (X-XIV əsrlər)

**Elxan Quliyev***

**Abstrakt.** Azərbaycan elm tarixinin hərtərəfli tədqiqi və öyrənilməsi ilk yazılı mənbələrin varlığı və onların tədqiqata cəlb edilməsindən çox asılıdır. Bilindiyi kimi Azərbaycanın orta əsrlər tarixinə dair mənbələrin əksəriyyəti ərəb və fars dillərindədir. Məqalədə həmin yazılı qaynaqlara əsasən elm tarixini daha çox işıqlandıran mənbələr barədə məlumat verməyə çalışmışıq. Bu qaynaqları hərtərəfli araşdırsaq görərik ki, IX-XIV əsrlərdə İslam dünyası bəşəriyyət sivilizasiyasının zirvəsini təşkil edirdi. Müxtəlif xalqların vahid bir dövlət tərkibinə qoşulması və bir-biri ilə əlaqədə olması elmlərin və mədəniyyətlərin surətlə inkişafına səbəb olmuşdur (bunu silin - gətirib çıxartdı). Azərbaycan xalqı İslam mədəniyyətinə layiqli töhfəsini verən xalqlar sırasındadır və bu reallıq sözügedən yazılı mənbələrdə aydın şəkildə öz əksini tapıb.

**Açar sözlər:** X-XIV əsrlər Azərbaycan, elm, tarix, yazılı qaynaqlar.

## 1.Giriş

Azərbaycanın elm tarixinin hərtərəfli tədqiqi ilk yazılı mənbələrin varlığından, sayından və elmi səviyyələrindən çox asılıdır. Tariximizin bir sıra sahələrinin indiyə kimi ətraflı öyrənilməməsinin əsas səbəbləri yazılı məxəzlərin qıtlığı, mövcud olanların isə dərindən tədqiq edilməməsi və ətraflı araşdırılmamasıdır. Orta əsrlərə dair mənbələrə gəlincə isə onların azlığından danışmaq doğru deyil.

Xilafət dövründə (VII-IX əsrlər) Azərbaycan ərəb qoşunları tərəfindən işğal olundu və ölkə İspaniyadan Hindistana qədər uzanmış Ərəb xilafətinə qatıldı. Müxtəlif xalqların vahid bir dövlət tərkibinə qoşulması və bir-biri ilə əlaqədə olması elmlərin və mədəniyyətlərin surətlə inkişafına gətirib çıxartdı. IX əsrdə bünövrəsi qoyulmuş bu yüksəliş XIV əsrin sonlarına qədər davam edirdi. Mübaliğəsiz demək olar ki, IX-XIV əsrlərdə İslam dünyası bəşəriyyət

* AMEA-nın Elm Tarixi İnstitutunun elmi işçisi
E-mail: elkhan2000@yahoo.com
https://orcid.org/0000-0002-9226-8877

**Məqaləyə istinad:** Quliyev, E., [2022] Azərbaycanın elm tarixi üzrə yazılı qaynaqları (X-XIV əsrlər). “Metafizika” jurnalı. № 1 (17), səh. 45-65

**Məqalənin tarixçəsi:**
Məqalə redaksiyaya daxil olmuşdur: 16.12.2021
Təkrar işlənməyə göndərilmişdir: 03.01.2022
Çapa qəbul edilmişdir: 01.03.2022

sivilizasiyasının zirvəsini təşkil edirdi. Ən böyük mədrəsələr (universitetlər), rəsədxanalar, xəstəxanalar, əczaxanalar və kitabxanalar məhz müsəlman Şərqində yerləşir, ən güclü alimlər burada çalışırdılar. Xəlifə Harun ər-Rəşid və xəlifə əl-Məmun Şərq elminin çiçəklənməsində müstəsna rol oynamışlar. Təqribən 1424-ci (hicri 827) ildə xəlifə əl-Məmun Bağdadda məşhur "Beytül-hikmə" ("Hikmət evi") akademiyasının əsasını qoydu. Müsəlman Şərqinin, o cümlədən Azərbaycanda elmin inkişafında müstəsna rol oynamış bu akademiya Sasanilər dövlətinin məşhur "Cundişapur" akademiyasının analoqu olaraq ona oxşar bir formada yaranmışdır (1, s. 194-195).

"Beytül-hikmə"də qədim yunan, hind, sami, siryani və Şərqin başqa qədim dillərində olan elmi kitablar ərəb dilinə tərcümə olunur və Xilafətin bölgələrində, o cümlədən Azərbaycanda yayılırdı. Beləliklə, IX-XIV əsrlərdə Azərbaycandakı intibah dövrünü iki mərhələyə bölmək olar: birinci mərhələ Abbasi xilafətinin fəaliyyəti ilə başlayan IX-XIV əsrləri əhatə edirdi. Bu dövrdə humanitar elmlər daha çox inkişaf edirdi. İkinci mərhələ isə Azərbaycanda Elxanilər hakimiyyəti dövrünü (XIII-XIV əsrlər) əhatə edir və dəqiq elmlərin, o cümlədən tibb, riyaziyyat, astronomiya, astrologiya, həndəsə, dərman bitkiləri, əczaçılıq, botanika, baytarlıq və s. daha güclü inkişafı ilə səciyyələnir.

IX əsrdən sonra Ərəb xilafətinin zəifləməsi Azərbaycanda milli dövlətçiliyin bərpası ilə nəticələndi. O dövrdə Azərbaycanda Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər və Şirvanşahlar dövlətləri kimi güclü müstəqil məmləkətlərin yaranması elm və mədəniyyətin inkişafına təkan verdi. Şirvanşahlar və Atabəylər elm və mədəniyyətə himayədarlıq edirdilər. Onlar öz saraylarında görkəmli alimləri toplayır və onlara elmi əsərlər yazmağı sifariş edirdilər. Bu dövrlərdə ən inkişaf etmiş elm sahələri fəlsəfə, hüquq, ədəbiyyat, dilçilik, riyaziyyat, astronomiya, tibb və kimya idi.

Məqalədə Azərbaycan elm tarixini özündə daha çox əks etdirən ərəb və farsdilli qaynaqlar barədə, onların müəllifləri, hansı elm sahələrinə daha çox üstünlük verməsinə dair nisbətən geniş məlumat verməyə çalışmışıq. Qeyd etmək lazımdır ki, xilafət dövründə bir çox ölkələr kimi Azərbaycan da vahid islam dünyasının müsəlman məmləkətlərindən biri hesab olunurdu və bir çox azərbaycanlı alim öz elmini inkişaf etdirmək məqsədilə digər müsəlman məmləkətlərinə köç edib, ərəb və fars dillərini öyrənib, bu dillərdə əsərlər yazırdılar. Şübhəsiz ki, həmin alimlər Azərbaycan tarixinin bir parçası hesab olunurlar və tədqiqat işlərimizdə onların həyat və yaradıcılığını işıqlandırmaq əhəmiyyətli və məqsədəuyğun hesab olunur.

**1- "Müqəddimə" (ərəb: المقدمة; Əl-Müqəddimə) - İbn Xəldun**: Əbdürrəhman ibn Məhəmməd ibn Xəldun (hicri.732-807miladi1332-1406)

nüfuzlu bir ailədə doğulduğu üçün dövrün müxtəlif elm sahələrinə yiyələnmiş, Tunisdə və Mərakeşdə dövlət vəzifələrində çalışdıqdan sonra öz fəaliyyətini Qranada və Misirdə davam etdirmişdir. Alimin ərəb dilində yazılmış ən çox tanınan iki əsəri mövcuddur ki, onlardan biri iki cilddə yazılmış “Müqəddimə”, digəri isə yeddi cilddən ibarət “Kitabul-ibər və divanul-mubtədə vəl-xəbər fi əyyami-ərab vəl-əcəm vəl-bərbər və mən asarəhum min zəvis-sultanil-əkbər/ərəbcə:
*«كتاب العبر و ديوان المبتدأ و الخبر في أيام العرب و العجم والبربر و من عاصرهم من ذوي السلطان الأكبر».*

(Ərəblərlə ərəb olmayan, bərbərlərin və eyni dövrdəki böyük qüdrət sahiblərinin müharibələrinə aid mənbə, xəbərləri toplayan və rəy bildirən kitab) əsəridir. Amma onun ”Müqəddimə” əsəri tarix elminin fəlsəfəsi haqda dəyərli məlumatlar verdiyinə görə daha dəyərlidir (2, s. 12).

İbn Xəldun bu əsərdə tarix elminin metodologiya məsələlərinə də toxunmuşdur. Müqəddimə əsəri 6 bölümdən ibarətdir:

1. İqlim və qidalanmanın insan təbiətinə və mədəniyyətlərə təsiri;
2. Köçəri və oturaq mədəniyyətlərin müqayisəsi və iki mədəniyyət arasındakı ziddiyyətlərin sosial nəticələri;
3. Dövlətlərin yaranması və çöküşü, səltənət, xilafət və krallıq etmənin şərt və qaydaları;
4. Kənd və qəsəbə həyatında abadlaşdırma fəaliyyətləri və fəaliyyətlərin İslam dövləti ilə əlaqəsi;
5. Dövrün əsas peşələri, dolanışıq vasitələri, sənət, ticarət, əkinçilik və inşaat kimi iqtisadi fəaliyyətlər;
6. Elmlərin təsnifatı, təhsil metodları (15).

“Müqəddimə” əsəri İspaniyada İslam mədəniyyət və sivilizasiyasının xristian aləminə göstərdiyi təsirlər barədə qiymətli məlumat verən yeganə qaynaq hesab olunur. İbn Xəldun İslam dünyasında, xüsusilə Əndəlüs və Şimali Afrikada baş vermiş hadisələrin canlı şahidi olduğuna görə onun məlumatları da əhəmiyyət kəsb edir. Çünki o, dövlət idarəçiliyində müxtəlif vəzifələr tutmuş və bəzi hadisələrdə şəxsən özü də iştirak etmişdir (2, s.12).

**2-“Əl-Fihrist” (ərəb: الفهرست) -İbn ən-Nəddim:** Əl-Fihrist”də olan məlumata görə İbn Ən-Nəddim adı ilə tanınan Əbülfərəc Məhəmməd ibn İshaq Əbi Yəqub Ən-Nəddim əl-Vərraq təqribən m.935 (hc.297)-ci ildə Bağdadda anadan olmuşdur. İbn Nəccar “Zeyli-tarixi-Bağdad” əsərində yazır ki, İbn Ən-Nədim hc.385/m.995-ci ildə vəfat etmişdir. Alimin həyatı barədə dəqiq məlumat olmasa da, Yaqut Həməvinin ehtimallarına görə, İbn Ən-Nədim bir çox müasirləri kimi kağız düzəldən və kitabsatan işləmişdir. O, özünün ən məşhur əsəri “Əl-Fihrist” kitabını m.987/hc. 377-ci ildə yazmışdır.

Müəllif yaşadığı dövrə qədər müxtəlif mövzularla bağlı yazılmış əksər məşhur əsərlərin siyahısını həmin ensiklopedik əsərdə işıqlandırmışdır. Əsərin əhəmiyyətli cəhətlərindən biri də bundan ibarətdir ki, müəllif burada müsəlman alimləri, eləcə də Yunan, İran və Hind alimlərinin əsərləri, onların fikir və düşüncələri, elmin müxtəlif sahələrinin inkişaf yollarını işıqlandırmağa çalışmışdır. Məhz bu baxımdan həmin əsəri "Elm tarixi" də adlandırmaq olar. Sözügedən əsərdə hicri tarixi ilə II və III (miladi VIII-IX) əsrlərdə İslam aləmində tərcüməçilik sahəsində cərəyan edən inqilabi hərəkat, tərcüməçi alimlərin həyat və yaradıcılığı və elmin müxtəlif sahələrinə dair mühüm məlumatlar yer almışdır. "Əl-Fihrist" yeganə əsərdir ki, orada islamdan öncə İran və Azərbaycanda istifadə olunan yazı xətlərindən bəhs olunur və hətta onlardan bəzisinin şəkilləri də göstərilir. Sözügedən əsər bütöv şəkildə 1871-ci ildə Leypsiq şəhərində Flogel və Müller tərəfindən nəşr edilmişdir. Sözügedən əsər İslam dünyasında, o cümlədən Azərbaycanda sonrakı dövrlərdə elmin inkişafında xüsusi rol oynadığını nəzərə alaraq məqalədə onun barədə məlumat verməyi məqsədəuyğun hesab etmişik (2, s.14; 3, s. 105).

**3-"Tarixül-hükəma (Əxbarül-üləma biəxbarül-hükəma)" (ərəb: (تاريخ الحكماء / اخبار العلماء باخبار الحكماء) - İbn Qifti (miladi 1172-1248/hicri 568-646):** Camaləddin Əbülhəsən Əli ibn Yusif Qifti 1172 (hicri 568)-ci ildə Misirin Qift şəhərində anadan olmuş, 1248 (hicri 646)-cı ildə isə Hələb şəhərində vəfat etmişdir. Bəzi qaynaqlarda Yaqut Həməvi ilə İbn Qifti arasında dostluq əlaqələrinin olduğu və "Tarixül-hükəma" əsərinin 1227 (hc.624)-cü ildən sonra yazıldığı haqda məlumat verilir. Müəllif bu əsərdə təqribən 414 tanınmış yunan və müsəlman riyaziyyatçı alimləri, eləcə də həkim və filosofların həyat və yaradıcılığını işıqlandırmışdır. Bəzi tədqiqatçıların fikrincə bu kitab itmiş və əlimizə gəlib çatmayan əsas əsərin yalnız qısaldılmış bir variantıdır (4, s. 866) və 1249 (hicri 647)-ci ildə Məhəmməd ibn Əli ibn Məhəmməd Xətibi Suzəni adlı bir şəxs tərəfindən "Əl-Müntəxəbatül-mültəqətat min kitabi tarixül-hükəma" adı ilə qələmə alınmışdır, amma elmi ictimaiyyət tərəfindən "Tarixül-hükəma" əsəri olaraq qəbul edilir (3, s. 103).

İbn Qifti əsəri yazarkən zəmanəmizə qədər gəlib çatmamış yunan müəlliflərinin əsərlərindən geniş formada bəhrələnmişdir. Burada alimlərin adları heca hərflərinə uyğun olaraq xronoloji əsasda tərtib edilmişdir. Müəllif bir çox məlumatları İbn Ən-Nədimin "Əl-Fihrsit" və Qazi Said Əndəlüsünün "Təbəqatül-uməm" əsərindən nəql etmiş, amma buna baxmayaraq əsərdə bundan əlavə qeyd edilən qaynaqların heç birində rastlaşmadığımız digər mühüm məlumatlar da mövcuddur. Buradakı məlumatları İbn Ən-Nədimin

"Əl-Fihrist" əsərindən olan məlumatlarla müqayisə edən zaman aydın olur ki, İbn Əl-Qifti "Əl-Fihrist" əsərinin müəllifi tərəfindən yazılmış bəzi məlumatları olduğu kimi təkrarlamışdır. Amma burada 987-ci (hicri 377) ildən sonra yaşamış alimlərin həyat və yaradıcılığına dair məlumatlar İbn Qiftinin özünə aiddir və yaxud da ki, onları digər müəlliflərin əsərlərindən iqtibas edilmişdir.

Alman şərqşünas alimi Avqust Müller "Tarixül-hükəma" əsərini təshih etməyə başlasa da, ölüm səbəbi ilə bu iş tamamlaya bilməmişdir. Julius Lipper adlı digər bir alim bu işi davam etdirərək 1903-cü ildə Leypsiq şəhərində onu nəşr etdirmişdir. Əsər Şah Süleyman Səfəvinin hakimiyyəti illərində Mirzə Məhəmməd İbrahim Mustovfi tərəfindən fars dilinə tərcümə edilmişdir (3, s. 103).

**4-"Tarixül-hükəma (Nüzhətül-ərvah və rövzətül-əfrah)" (ərəb: (تاريخ الحكماء (نزهة الارواح و روضة الافراح) – Şəmsəəddin Məhəmməd ibn Mahmud Şəhrzuri (vəfat: hicri 687/miladi 1288):** Sözügedən əsərdə 127 məşhur filosofun həyat və yaradıcılığından bəhs edilir və kitab iki əsas hissəyə bölünür: Birinci hissədə məlumatlar Adəmdən tutmuş Qalenin (Claudius Galenus –129-200 / Q.E) həyat və yaradıcılığına qədər davam etdirilir. Burada Yunan filosoflarının fəlsəfi düşüncələri barədə daha çox məlumat verilir. Amma əsərin ikinci hissəsində verilmiş məlumatlar Huneyn ibn İshaqdan başlanaraq Şeyx İşraqın (Şəhabəddin Söhrəvərdi) dövrünə qədər yaşamış alimlərin həyat və yaradıcılıqlarını əhatə edir. Kitabın bu hissəsi əsasən müsəlman alimləri, o cümlədən İran və Azərbaycan alimlərinin həyat və yaradıcılığına həsr olunmuşdur. Burada Şeyx İşraq barədə verilən məlumatlar ən düzgün və ilkin məlumat hesab olunur. Çünki Şeyx İşraq müəllifin müasirlərindən olmaqla yanaşı, həm də onun dostu olmuşdur. Hicri tarixi ilə XI əsrin əvvəllərində (hicri 1011-1014/ miladi 1602-1605) bu əsər Cahangir Qurqaninin tapşırığı ilə tanınmış Azərbaycan alimi Maqsud Əli Təbrizi tərəfindən Hindistanda ərəb dilindən fars dilinə tərcümə edilmişdir. Son illərdə isə həmin kitaba əlavələr edilərək yeni çapdan buraxılmışdır (2, s. 15).

**5-"Üyunül-ənba fi təbəqatil-ətibba" (ərəb: (عيون الانباء فى طبقات الاطباء) Müvəffəqəddin Əbül-Abbas Əhməd ibn Əbi Usaybə (miladi 1203-1270/ hicri 600-669):** İbn Əbi Usaybənin atası Dəməşq şəhərinin tanınmış göz həkimlərindən biri olmuş və onun övladları da tibbi təhsillərini Dəməşq və Qahirədə almışlar. İbn Əbi Usaybə məşhur həkim və botanik İbn Bitarın şagirdlərindən olmuş və bir müddət əczaçılıq sahəsində onunla həmkarlıq etmişdir. O, Məmlüklərin hakimiyyətinin ilk illərində Dəməşqdə həkim və tarixçi alim kimi tanınmış, öz məşhur əsərini də məhz həmin illərdə (miladi

1245/hicri 643) yazmışdır. Sözügedən əsər həkim və təbib alimlərin həyat və yaradıcılıqları barədə bəhs edən ilk əsər hesab olunur. Əsərdə 400 nəfər müsəlman və Rum (Rum: ərəb mənbələrində Kiçik Asiya- Türkiyənin Asiya hissəsi və ya Anadoluya deyilir- E.Q.) məmləkətində yaşayan həkim alimin avtobioqrafiyası öz əksini tapmışdır. Barəsində məlumat verilmiş həkim və alimlərin bəzisinin həm də riyaziyyat, fəlsəfə və təbiət elmləri ilə məşğul olduqlarını nəzərə alsaq, üç cilddən ibarət olan bu əsərin elm tarixinə dair mühüm qaynaq olduğunu söyləyə bilərik (2, s. 15-16).

**6-"Mücəmül-üdəba" (ərəb: معجم الادباء) – Yaqut Həməvi:** Yaqut Həməvi tərəfindən hicri tarixi ilə VI və VII (miladi XII-XIII) əsrlərdə qələmə alınmış və "Mücəmül-üdəba" adi ilə məşhurlaşan "İrşadül-ərib ila mərifətül-ədib" əsəri ədəbiyyatçı alimlərin həyat və yaradıcılığına həsr olunmuşdur (2, s. 16).

**7-"Vəfiyyatül-əyan" (ərəb: وفيات الاعيان) – İbn Xəlləkan:** Bərməkilər nəslindən olan Şəmsəddin Əhməd ibn Xəlləkan (miladi 1211-1281/ hicri 608-681) İraqın Ərbil əyalətində anadan olmuşdur. Dəməşq, Hələb və Qahirədə yaşamış alim Dəməşqdə qazı vəzifəsində, sonra isə Qahirədə tədris işi ilə məşğul olmuşdur. O, özünün ən məşhur əsəri olan "*Vəfiyyatül-əyan*" və yaxud "Vəfiyyatlül-əyan və ənbau əbnaüz-zaman" kitabını 1256-cı (hicri 654) ildə Qahirədə yazmağa başlamış və 1274-cü (hicri 673) ildə onu tamamlamışdır. Əsərdə İslam aləmində məşhur olan təqribən 850 nəfər alim və dövlət xadiminin həyat və yaradıcılığı işıqlandırılmışdır. Burada onların adları, doğum və ölüm tarixi, həmçinin şəhər adları heca hərflərinə uyğun şəkildə sıra ilə yazılmışdır. Bu baxımdan sözügedən kitab ən böyük İslam ensiklopediyası hesab olunur. Mövlanə Zəhirəddin Ərdəbili (vəfatı: hicri 930/ miladi 1527) bu əsəri "*Sultan Səlim*" adı ilə fars dilinə tərcümə etmişdir. Hicri tarixi ilə 1284-cü (miladi 1867) ildə Mötəmidüd-Dövlə Fərhad Mirzə əsərin ərəb dilində olan variantını Tehranda təshih və çap etdirmişdir. Əsərin əlyazma nüsxələrindən biri İslam Şura Məclisinin kitabxanasında saxlanılır (2, s. 16; 3, s. 113-114).

**8-"Müxtəsərüd-düvəl" (ərəb: مختصرالدول)- İbn İbəri:** Siryani keşişlərindən olan Əbül-Fərəc 1226-cı (hicri 623) ildə Malatya şəhərində doğulmuşdur. Cavan yaşlarından xristian dini elmləri, tibb, fəlsəfə və ərəb dilini öyrənməklə məşğul olmuşdur. Atası yəhudi dininə mənsub olmağına baxmayaraq o, xristianlığı qəbul etmiş, 1243-cü (hicri 641) ildə atası ilə birlikdə həkimlik fəaliyyəti ilə məşğul olmuşdur. İbn İbəri Monqolların hücumundan əvvəl atası ilə birlikdə Malatiyanı tərk edərək Antakiyaya, qısa müddətdən sonra isə Trablus şəhərinə köçmüş və 1252-ci (hicri 650) ildə Hələb və Tekrit şəhərlərinin xəlifəsi seçilmişdir. Bir müddət səyahətə çıxan

alim Marağa şəhərində də olmuşdur. O, ərəb dilində yazdığı “Müxtəsərüd-düvəl” əsərində digər ərəb və farsdilli qaynaqlardan da bəhrələnmişdir. Əsərdəki Xarəzmilər, İsmaililər və monqol hücumlarına aid olan məlumatlar “Cahangüşayi-Cuveyni”nin əsərindən iqtibas edilmişdir. Amma monqolların Əlcəzirə (Şimali Beynənnəhrin), Rum ərazisini istilası və Çingiz xan yasasına dair məlumatlar olduqca orijinaldır. Bəhs edilən dövrlərdə Şam (indiki Suriya) torpaqlarında yaşamış xalqların mədəniyyətinə dair verilmiş məlumatlar da elmi-tarixi baxımdan qiymətli hesab olunur (3, s. 114-115).

İbn İbəri tərəfindən yazılmış bu əsərdə işıqlandırılan tarixi bəhslərin hər birinin sonunda həmin dövrdə yaşamış alimlərin həyat və yaradıcılığından söhbət açılmışdır. Bu isə öz elmi fəaliyyətləri ilə İslam mədəniyyətinə töhfə vermiş görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığının tədqiq edilərək öyrənilməsi istiqamətində faydalı ola bilər (2, s. 16).

**9-“Əl-həvadisül-camiə vət-təcarubün-nafiə fil-miətis-sabiə” (ərəb: الحوادث الجامعة و التجارب النافعة فى الماة السابعة) - İbn əl-Fuvati (İbn Sabuni) (hicri 642-723/miladi 1244-1323):** Kəmaləddin Əbdürrəzzaq Əhməd Bağdadi əslən Xorasanın Mərvur-rud bölgəsindəndir. O, hədis və tarix elmi ilə yanaşı, fəlsəfə elmini də öyrənərək mənimsəmişdi. Sözügedən alim Abbasilər sülaləsinin son xəlifəsinin dövründə Bağdadda dövlət işləri ilə məşğul olurdu. Bağdad şəhəri Hülakular tərəfindən ələ keçirilən zaman İbn əl-Fuvati əsir götürülərək Azərbaycana gətirilmişdir. Nəsirəddin Tusi onu azad edərək öz yanına işə götürmüş və o, on üç il müddətinə Marağa rəsədxanasında təsis edilmiş kitabxananın müdiri vəzifəsində çalışmışdır. Sonralar o, Bağdada qayıdaraq “Müstənsəriyyə” mədrəsəsinin kitabxanasında müdir vəzifəsində çalışmışdır (3, s. 101-102).

İbn əl-Fuvati özünün zəngin təcrübəsi, dünya görüşü sayəsində özündən sonra çox qiymətli əsərlər qoyub getmişdir. Bu kitablardan biri də ərəb dilində yazılmış “Əl-həvadisül-camiə vət-təcarubün-nafiə fil-miətis-sabiə” əsəridir. Kitabda XIII (hicri tarixi ilə VII) əsrin hadisələri işıqlandırılmış, amma təəssüflər olsun ki, ondan 25 il əvvəlki hadisələr barədə məlumatlar məhv olmuşdur.

Əsərdə 1229-cu (hicri 626) ildən başlayaraq baş vermiş hadisələr şərh edilir. Müəllif dövrün tanınmış alimləri, tarixçiləri və yazıçılarının həyat və yaradıcılığına dair qiymətli məlumatlar vermişdir. Bundan əlavə o, həmin dövrün bir sıra ictimai məsələlərinə dair, o cümlədən məmur vəzifələri, qanunlar, tədris üsulları, mədrəsə və məscidlərin müxtəlif növləri, karvansaralar, kitabxanalar, Abbasilər və Elxanilər sarayında tətbiq edilən rəsmi protokol qaydaları barədə qiymətli məlumatlar təqdim etmişdir. Əsərdə həmçinin xristian və yəhudilərin həyat tərzi, eləcə də “Tarixi-cahangüşa”

əsərinin müəllifi Ataməlik Cüveyninin həyat və yaradıcılığına dair başqa mənbələrdə rast gəlmədiyimiz maraqlı məlumat da yer almışdır. Bu əsər hicri tarixi ilə 1351 (miladi 1932)-ci ildə Bağdadda nəşr olunmuşdur (3, s. 102).

**10-"Əğani" (ərəb: اغانى) – Əbülfərəc Əli inb əl-Həsən əl-İsfahani:** Əbülfərəc Əli ibn əl-Həsən əl-İsfahani (897-967/ hicri 284-356) X (hicri IV) əsrin tanınmış yazıçı və alimlərindən biri hesab olunur. İsfahanda doğulmuş və Bağdadda boya-başa çatmış Əbülfərəc Əli inb əl-Həsən əl-İsfahani özünün iyirmi bir cilddən ibarət "Əğani" əsərini ərəb dilində yazmışdır. Onun bu əsərində ərəbdilli və ərəb dilində şeir yazan 395 şairin həyat və yaradıcılığına dair qiymətli məlumatlar yer almışdır. Müəllifin yazdığına görə, o, ömrünün 50 ilini bu əsərin yazılmasına sərf etmişdir. İbn Xəldun "Müqəddimə"də yazır: *"["Əğani" əsəri] Ərəblərin kitabı və ədəbiyyat aşiqlərinin sonuncu qaynağıdır"*. Sözügedən mənbə barədə bunu deyə bilərik ki, islamdan öncəki dövrlərdən etibarən IX (hicri III) əsrə qədər ərəb mədəniyyətini nəzərdən keçirmək istəyənlər, müəllifin "Əğani" əsərinə müraciət edə bilərlər (3, s. 23).

**11-"Təbəqatül-üməm" (ərəb: طبقات الامم) – Said Əndəlüsi:** Əbülqasim Said Əndəlüsi m.1029-cu ildə İspaniyanın Almeriya əyalətində anadan olmuş və 1070-ci ildə Toledo şəhərində vəfat etmişdir. O, XI əsrin tanınmış riyaziyyat, fəlsəfə və tarixçi alimlərindən biri olmuş, bir çox elm sahələrində, o cümlədən astronomiya və astrologiya sahəsində fundamental tədqiqatlar aparmış və kitablar yazmışdır. O, həmçinin "Cəvamiül-əxbarül-üməm minəl-ərəbi vəl-əcəm" (ərəb və qeyri-ərəb xalqlarının tarixi keçmişi), "İslahu hərəkatin-nücun", "Tarixi-Əndəlüs", "Tarixi-islam" adlı əsərlərin də müəllifidir. Şöhrətli alim bir müddət Toledo şəhərində qazı vəzifəsində çalışmış və orada vəfat etmişdir. "Təbəqatül-üməm" əsəri müəllifin bu günümüzə kimi tam və bütöv şəkildə gəlib çatan yeganə əsəridir. Elm tarixinə həsr olunmuş bu kitab qədim dövr elmlərinin tarixindən bəhs edir (5).

**12-"Nəfaisül-fünun fi Əraisil-üyun" (ərəb: نفائس الفنون فى عرائس العيون) – Əllamə Şəmsəddin Məhəmməd ibn Mahmud Amuli:** "Şəmsəddin Amuli" ləqəbi ilə tanınan Əllamə Məhəmməd ibn Mahmud XIII-XIV (hicri VII-VIII) əsrlərdə yaşayıb-yaratmış İslam alimlərindən biri olmuşdur. Alimin dəqiq doğum tarixi bizə məlum deyil, amma XIII (hicri VII) əsrin ikinci yarısında Amulda (Mazandaran vilayəti) anadan olduğu qeyd edilir. O, Ulcaytu xanın dövründə (1304-1317) Sultaniyyə şəhərinə dəvət olunmuş, ora getdikdə Ulcaytu xanın və onun vəziri Fəzlullah Rəşidəddinin rəğbətini qazanaraq Sultaniyyə mədrəsəsinin müəllimi (müdərris) vəzifəsinə təyin edilmişdir (6, c.1, s.13).

Əllamə Şəmsəddin Amulinin ən məşhur əsəri fars dilində yazdığı «*Nəfaisül-fünun fi Əraisil-üyun*» (Çeşmələr incilərində nəfis elm sahələri) əsəridir. Üç cilddən ibarət bu kitab sözügedən dövrün müfəssəl elmi-ensiklopedik məlumatlar kitabı hesab olunur. Belə ki, əsərdə sözügedən dövrə aid 120-yə yaxın elm və onların müxtəlif şaxələri özünəməxsus formada işıqlandırılmış, elmin mürəkkəb məsələləri sadə bir dildə şərh edilmişdir. O, 1335-ci (hicri 736) ildə başladığı, m.1341-ci (hicri.742) ildə bitirdiyi ensiklopedik əsərində elmin müxtəlif sahələrini bir neçə fəsilə bölərək şərh etmişdir (6, c.1, s.9 və 13). Əsərin üçüncü cildində texniki elmlərə, xüsusilə də riyaziyyat elminə dair müfəssəl məlumat verilmişdir (6, c.3, s. 2).

Müəllif həndəsə bölümündə bu elmin tarixçəsini, Arximed, Əflatun və s. kimi dünyaşöhrətli alimlərin elmi fikirlərini və müxtəlif həndəsi fiqurları özünəməxsus şəkildə şərh etmişdir (6, c.3, s. 3-26).

Əsərdə həmçinin riyaziyyat elmində mühüm mövzulardan hesab olunan ədədlərin xüsusiyyətləri, astronomiya və astrologiya, hesab, cəbr və kimya elmlərinə dair qiymətli məlumat verilmişdir (6, c.3, s. 45-72, 413, 430, 158, 446 və 26-45).

Şəmsəddin Amuli tibb elmi bölümündə əvvəlcə bu elmin tərifini, sonra isə bu təriflə bağlı irəli sürülmüş iradlar barədə maraqlı elmi-fəlsəfi açıqlamalar təqdim etmişdir (6, c.3, s.109-138). Əsərdə kənd təsərrüfatına dair verilən elmi məlumat olduqca maraqlıdır. Müəllif burada əkinçilik, müxtəlif toxum və ağacların saxlanılması və becərilməsi, eləcə də onların xüsusiyyətlərinə dair faydalı elmi fikirlər irəli sürmüşdür (6, c.3, s.302 və 357). O, bu əsərdə musiqi elmini də nisbətən geniş formada işıqlandırmış və musiqi sənətini riyaziyyat elminin bir istiqaməti kimi təqdim edilmişdir (6, c.3, s. 73).

Mənbələrə görə, Sultan Əbu Səidin (1316-1335) vəfatından və Azərbaycanda baş qaldırmış hərc-mərclikdən sonra Şəmsəddin Amuli Sultaniyyədən Şiraza köçmüş və 1352-ci ildə orada vəfat etmişdir (6, c.1, s.13-14, 64, 345).

**13-“Təhriri-üsuli-Eqlidis (Evklid)” (fars: تحریر اصول اقلیدس) – Xacə Nəsirəddin Tusi:** Şübhə yoxdur ki, N.Tusi dövrünün əksər elmlərinə yiyələnmiş və həmin sahələrdə fars və ərəb dillərində çox sayda elmi əsərlər yazmışdır. Bütün bunlara baxmayaraq alimin əsas elmi istiqaməti fəlsəfə (hikmət), riyaziyyat və həndəsə elmləri olmuşdur. Onun məşhur “Təhriri-üsuli-Evklid” adlı elmi əsəri riyaziyyat və həndəsə elminə həsr edilmişdir. Bu kitabın əsl nüsxəsi yunan dilində yazılmış, N.Tusi isə onu fars dilinə tərcümə etmişdir. O, 1248-ci ildə həmin kitabı yenidən yazaraq, ona bir sıra əlavələr

də etmişdir. Kitab əsrlər boyu riyaziyyat və həndəsə ixtisasları üzrə dünyanın bir çox elmi müəssisələrində tədris vəsaiti olaraq istifadə edilmişdir.

L.İ.Dövlətöva tərəfindən rus dilində qələmə alınmış "Nəsirəddin Tusinin "*Təhriri-Eqlidis*" **(ərəb: تحريراقليدس)** adlı ilk dörd kitabında planimetriyanın[1] əsasları" adlı məqalədə sözügedən risalənin 1594-cü ildə Romada "Evkilidin müqəddiməsi" adı altında nəşr olunmuş nüsxəsinin rus dilinə tam tərcüməsi və həmin risalədə Nəsirəddin Tusinin (1201-1274) planimetriya haqqında irəli sürdüyü elmi mülahizələrinə dair qiymətli məlumatlar verilmişdir. Müəllif yazır ki, ərəb dilində qələmə alınmış bu risalə sovet alimlərinin yazılarında "Təhriri-Evkilid" adı ilə öz əksini tapmışdır. Nəsirəddin Tusinin "Təhriri-Evkilid" risaləsi və riyaziyyatla bağlı digər elmi əsərələri sovet alimləri tərəfindən uzun müddətdir ki araşdırılmaqdadır. Onlardan V.F.Kaqan, Z.İ.Xəlilov, A.P.Yuşkeviç, B.A.Rozenfeld, Q.D.Məmmədbəyli, eləcə də R.M.Sultanov, F.A.Qasımxanov (Azərbaycan), A.K.Kubesov (Qazaxıstan), S.A.Əhmədov (Özbəkistan) və s. adlarını çəkmək olar. Sözügedən risalə iki müxtəlif ölkədə nəşr edilmişdir: birincisi Tehran çapıdır ki, bu kitab daha qədim nüsxədən götürülmüşdür. İkinci nümunə isə 1594-cü ildə Romada nəşr olunmuşdur. Məqalənin müəllifi bu yazıda qeyd edir ki, biz Nəsirəddin Tusi tərəfindən qələmə alınmış "Təhriri-Evkilid" adlı otuz risaləsindən yalnız dördünü rus dilinə tərcümə edib, onları elmi tədqiqata cəlb edə bilmişdik. Müəllifin istifadə etdiyi bu tarixi mənbə elm tarixinin, xüsusilə də orta əsrlərdə Azərbaycanda elm tarixinin araşdırılmasında önəmli rol ifa edə bilər. Ümid edirik ki, bu risalə yaxın gələcəkdə azərbaycanlı alimlər tərəfindən elmi tədqiqatlara cəlb olunacaqdır (7, s. 45-50).

N.Tusi həmçinin aşağıda göstərilən əsərlərin müəllifidir: *1-"Təcridül-kəlam" yaxud «Təcridül-etiqad»*: İmamiyyə və şiə məzhəbinin əqidəsi, dini baxışlarını əqli və kəlami dəlillərlə isbat edən kitab; *2-"Təhrirül-Magisti":* Ptolemey tərəfindən heyət elminə aid "Magisti" əsərinin şərhi; *3-"Şərhi-işarət":* Əbu Əli Sinanın fəlsəfə elminə aid «Əl-tənbihat vəl-işarət» kitaibnın şərhi; *4-"Əxlaqi-Nasiri"*: Əməli hikmət və əxlaq mövzusuna aid fars dilində yazılmış əsər; *5-"Əsasül-iqtibas»:* Məntiq elminə aid olan bu kitab fars dilində yazılmışdır; *6-"Təzkirətül-Nəsiriyyə fi elmil-heyət":* Ərəb dilində astrologiya və astronomiya elmlərinə aid olan bu kitab həcmcə az olmağına baxmayaraq özünün orijinal elmi üslubu ilə seçilir. Nücum elmini tam əhatə edən əsər dörd hissədən ibarətdir və miladi.1260 (hicri.t 659)-cı ildə Marağa

---

[1] **Planimetriya**- (latın dilində planum- «müstəvi», yunanca μετρεω- «ölçürəm»)- Evklid həndəsəsinin ikiölçülü fiqurları (bir müstəvi üzərində yerləşən fiqurları) öyrənən bölməsidir.bütün həndəsi fiqurları əmələ gətirən ilk həndəsi fiqurlar nöqtələr və düz xətlərdir. (https://az.wikipedia.org/wiki/Planimetriya).

şəhərində yazılmışdır (8, c.3, s.113). *7-“Övsafül-əşraf”:* Təsəvvüf və irfan elminə aid olan bu kitab fars dilində yazılmışdır. Əsər son dövrlərdə Bakıda Azərbaycan dilinə də tərcümə edilmişdir; *8-“Meyarül-əşar”:* Fars dilində yazılmış bu kitab əruz, qafiyə və s. mövzulara həsr edilmişdir.

**14-“Əs-səydənə fit-tibb” (ərəb: الصيدنة فى الطب) – Əbu Reyhan Biruni:** Dövrünün əksər elmlərini mükəmməl bilən Əbu Reyhan Məhəmməd ibn Əhməd Biruni 972 (hicri 362)-ci ildə Xarəzm yaxınlığında yerləşən Birun məntəqəsində anadan olmuşdur. Alimin dəqiq ölüm tarixi bəlli deyil, amma Hacı Xəlifə özünün “Kəşfüz-zünun” əsərində onun təqribən 1032-1058 (hicri 423-450)-ci illərdə vəfat etdiyini yazmışdır. Əbu Reyhan Biruni bir neçə dil, o cümlədən ərəb, fars, hind, sanskrit dillərini bildiyinə görə özündən sonra bir çox qiymətli elmi əsərlər qoyub getmişdir. Bu əsərlər sırasında “Əs-səydənə fit-tibb” (Farmakoqnoziya) əsərini xüsusi yeri vardır. Bu əsərdə müalicəvi bitkilər, onların adları, xüsusiyyətləri və hazırlanma qaydaları haqda qiymətli məlumatlar verilmişdir. Əsər orta əsr Şərqində əczaçılıq tarixi üzrə ən mükəmməl elmi-ensiklopedik əsər hesab olunur. Burada mindən artıq dərman bitkilərinin, heyvanların və mineralların adı bir neçə dildə və dilin müxtəlif şivələrində oxuculara təqdim edilmişdir. Kitabda həmçinin əczaçılıq, botanika, zoologiya, filologiya və coğrafiya elmləri ilə bağlı öyrənilməli çoxlu məlumatlar yer almışdır (9, s. 124).

Əbu Reyhan Biruninin digər əsərləri aşağıdakılardan ibarətdir: *1-“Təhqiq ma lil-Hind”:* Kitab hindlilərin adət-ənənələrindən bəhs edir; *2-“Qanuni-Məsudi”:* Astronomiya elminə həsr olunmuş bu əsər on bir fəsildən ibarətdir; *3- “Ət-Təfhim liəvaili sənaəti-təncim”:* Astronomiya elminə həsr olunmuş bu əsər fars dilində qələmə alınmış və bir neçə yüz il riyaziyyat və astronomiya sahəsində dərslik vəsaiti kimi istifadə olunmuşdur; *4- “Əl-Cəmahir fi mərifətil-cəvahir”:* Əsərdə mədən və təbii sərvətlər, metallar, xüsusilə də müxtəlif növ ləl-cəvahiratlardan bəhs edilir. Müəllif burada Arestotil və İshaq əl-Kindi kimi böyük alimlərin təqribən üç yüz növ mədən materialları ilə bağlı irəli sürdükləri elmi fikirlərə aydınlıq gətirmişdir. Əbu Reyhan Biruni burada Asiya, Avropa və Afrika qitələrinin müxtəlif növ metal və qiymətli materiallarına dair də məlumat vermişdir; *5- “Asarül-baqiyyə ənil-qurunil-xaliyyə” (keçmiş əsrlərdən qalmış əsərlər):* Əbu Reyhan Biruni bu əsərdə tarixin başlanğıcı və müxtəlif xalqların, o cümlədən iranlılar, yəhudilər, xristianlar, islamdan öncə və sonrakı dövrlərdə yaşamış ərəblərin təqvim və tarixləri barədə qiymətli məlumat təqdim etmişdir. Əsər bir növ “dinlər tarixi” mövzusunda yazılmış kitab hesab olunur; *6- “İstiabül-vücuhül-mumkinə fi sənətil-üstürlab”:* Bu əsər müxtəlif növ üstürlab

cihazının (xüsusi astronomik cihaz) istehsal metodlarından bəhs edir (9, s. 124; 14).

**15-"Ənvarüt-tənzil və əsrarüt-təvil" (ərəb: انوارالتنزيل و اسرارالتاويل) – Beyzavi:** Abdullah ibn Ömər ibn Məhəmməd əl-Bəydavi (d. ?, Şiraz- ö. 1285 Təbriz) bir müddət Şirazda qazi vəzifəsində çalışmış, bu vəzifədən azad edildikdən sonra Təbrizə gəlmiş və Arqun xanın rəğbətini qazanaraq yenidən həmin vəzifəyə təyin olunmuşdur. Tədris işi ilə məşğul olan alim 1286 (hicri.685)-ci ildə Təbriz şəhərində vəfat etmişdir. Bəydavi təfsir və kəlam elmləri üzrə dövrünün tanınmış ilimlərindən biri olmuşdur. Onun təfsir sahəsində iki məşhur əsəri vardir ki, onlardan biri "Ənvarüt-tənzil və əsrarüt-təvil", digəri isə "Təvameül-ənvar və mətameül-ənzar" əsəridir. Sözügedən alim metafizika və ilahiyyat sahəsinə dair yazdığı bir çox əsərlərlə yanaşı həm də "Nizamüt-təvarix" adlı tarixi kitabın müəllifidir. Əsərdə Adəmdən tutmuş 1275-ci (hicri 674) ilə qədər baş vermiş tarixi hadisələr öz əksini tapmışdır (3, s. 141).

**16-"Kəşfüz-zünun" (ərəb: كشف الظنون) – Hacı Xəlifə (Katib Çələbi):** Tanınmış türk tarixçisi Hacı Xəlifə (Mustafa ibn Adbullah- miladi 1608-1656/ hicri 1017-1067) İstanbulda anadan olmuşdur. O, 1623 (hicri 1033)-cü ildən etibarən 1635 (1045)-ci ilə qədər davamlı şəkildə Osmanlı qoşunları ilə birlikdə Şərqi Anadolu sərhədləri boyu baş vermiş döyüşlərin, o cümlədən Osmanlı-Səfəvi müharibəsinin iştirakçılarından biri olmuşdur. Hacı Xəlifə 1633-cü (hicri 1043) ildə Kəbə evini ziyarət dən zaman oradakı bir çox kitabxanalara da baş çəkmiş və 1635-ci (hicri.1045) ildə yenidən İstanbula qayıtmışdır. Onun kifayət qədər sərvəti-malı olduğuna görə, ömrünün qalan hissəsini yalnız mütaliə və tədqiqat işlərinə həsr etmiş və özündən sonra çox sayda qiymətli əsərlər qoyub getmişdir. Bu əsərlər sırasında ərəb dilində yazılmış elmi-ensiklopedik əsər "Kəşfüz-zünun" kitabı özünəməxsus yer tutur. Müəllif burada ərəb, fars və türk dillərində yazılmış on beş minə yaxın kitabı siyahıya almış və onların həm özü, həm də müəllifləri barədə ətraflı məlumat vermişdir. Hacı Xəlifə ömrünün iyirmi ilini bu kitabın yazılmasına sərf etmiş və onun ilk cildini 1654 (hicri 1064)-cü ildə tamamlamışdır. Misirdə, Almaniyada və İstanbulda nəçr edilmiş, latın dilinə tərcümə edilmişdir. Flogel adlı alim 1835-ci ildən etibarən "Kəşfüz-zünun" əsərini latın dilinə tərcümə etməyə başlamış və 1858-ci ildə onu Leypsiq şəhərində yeddi cilddə çap etdirmişdir. Bu əsər həmçinin 1857-ci (hicri 1274) ildə Misirin Bulaq əyalətində iki cilddə, 1893-cü (hicri.1311) ildə isə yenə iki cilddə İstanbulda nəşr olunmuşdur (3, s.153-154).

**17-"Tarixi-Qazani" (fars: تاريخ غازانى) - Xacə Rəşidəddin Fəzlullah:** Xacə Rəşidəddin Fəzlullah ibn İmadüd-Dövlə Həmədaninin (miladi 1247-

1318 / hicri 645-718) doğum tarixi ilə bağlı mənbələrdə dəqiq məlumata rast gəlinmir. Lakin Müctəba Minəvinin yazdığına görə, F.Rəşidəddin şəxsən özü «Bəyanül-həqaiq» adlı kitabının 260 vərəqində yazır: “Bu il, yəni 1310 (hc. 710)-cu ildə mənim 62 yaşım oldu”. Müctəba Minəvi həmçinin yazır ki, F.Rəşidəddin divan işlərilə məşğul olan bir yəhudi əsilli ailədə dünyaya göz açmış və tibb elmini də öz atasından öyrənmişdir. O, Abaqa xanın sarayında təbib kimi fəaliyyətə başlamış, Ərğun xan və Keyxatu dövründə də hakim dairə tərəfindən hörmətlə qarşılanmışdır (3, s. 143).

Qazan xan tarix elminə xüsusi önəm verdiyinə görə F.Rəşidəddinə göstəriş verir ki, monqollar barədə bir tarixi kitab yazsın. F.Rəşidəddin onun bu tapşırığını qəbul edir və beləliklə “Tarixi-Qazani” adlı əsərini yazmağa başlayır. Amma kitab tam şəkildə başa çatdırılmamış Qazan xan dünyasını dəyişir. Ulcaytu onu bu işi davam etdirməyə təşviq edir. Beləliklə R.Fəzlullah bu kitabı 1310-cu (hicri.710) ildə başa çatdırır.

Sözügedən kitab uç cilddən ibarətdir. Birinci cild monqol-türk tayfalarının tarixinə həsr edilmiş və iki fəsildən ibarətdir. Birinci fəsildə müxtəlif türk və monqol tayfalarından bəhs edilir. İkinci fəsil isə Çingiz xan və onun sələfləri və canişinlərindən tutmuş Qazan xanın dövrünə qədər baş vermiş hadisələri özündə əks etdirir. “Tarixi-Qazani” adlanan bu cildin əhəmiyyəti ona görə çoxdur ki, burada çadırlarda yaşayan türk və monqol tayfaları, onların sosial durumu, həyat tərzi və digər ictimai məsələlərə dair heç bir digər qaynaqlarda rast gəlmədiyimiz məlumat verilmişdir (3, s. 164).

Qeyd etmək lazımdır ki, F.Rəşidəddin bir çox digər əsərlərin də müəllifidir. Bəzi tədqiqatçılar F.Rəşidəddinin əsərlərini iki qrupa bölürlər: 1) Əməllər, şəriət hökmləri, maarif və ona aid məsələlər; 2) Tarix, hadisələr (rəvayətlər), iqlimlər və ona aid bəzi elmi bəhslər.

Müəllifin birinci qrupa aid olan əsərləri bunlardır: 1) «Tövzihat», 2) «Miftahüt-təfasir», 3) «Sultaniyyə», 4) «Lətaif». Bu dörd kitab «Rəşidiyyə məcmusu» adlanır, 5) «Bəyanül-həqaiq», 6) «Asar və Əhya».

İkinci qrupa aid olan əsərlər isə aşağıdakılardır:

**1) *«Camiət-təvarix»:*** Dörd cilddən ibarət bu tarixi əsər nəsəbşünaslıq, iqlimlər və onlara dair digər məsələlərdən bəhs edir. F.Rəşidəddin əsərin yazılmasında müxtəlif ölkələrdən olan saray alimlərinin məlumatlarından da istifadə etmişdir. Onlardan iki nəfər İran və iki nəfər Çin alimi, Kəşmirdən olan bir hindu, bir nəfər fransalı keşiş, həmçinin monqol qəbilələrinə aid qədim əfsanələrin bilicisi olan bir neçə monqol əyanlarını qeyd etmək olar. Üç cilddən ibarət bu kitab 1310-cu (hicri 710) ildə tamamlanmışdır (3, s. 164).

**2)** ***«Tonqsuqnamə»:*** Çin dilindən fars dilinə tərcümə edilmiş aşağıdakı dörd kitabdan ibarətdir: 1-Çin təbabəti, 2-Çin ədviyyələri, 3-Monqol ədviyyələri, 4-Çin siyasəti, mülk və idarəçilik tədbirləri.

**3)** ***«Vəqfnamey-i Rəbi-Rəşidi»:*** Bəhs edilən dövrün ictimai və iqtisadi tarixini işıqlandıran müstəqil bir əsərdir. «Vəqfnamə» əsəri XIV əsrdən bu günə kimi gəlib çatmış çox dəyərli tarixi mənbələrdən biri hesab olunur. Bu əsər əslində həmin əsrdə yazılmış vəqf haqqında bir sənədin əlyazma nüsxəsidir. Görkəmli alim, təbib və vəzir Fəzlullah Rəşidəddin Həmədani Azərbaycan və İranın müxtəlif bölgələrində olan şəxsi əmlak və torpaq ərazilərini, onların əmlak gəlirlərini yardım və xeyriyyəçilik məqsədilə vəqf etmişdir. Bu vəqfdən əldə olunan əmlak gəlirləri məktəblər, xəstəxanalar, yetimlər evi və digər ictimai müəssisələrin yaradılması və saxlanılması xərclərinin ödənilməsi üçün nəzərdə tutulmuşdu. «Vəqfnamə» əsərinin böyük bir hissəsi şəxsən F.Rəşidəddinin öz dəsti-xətti ilə, qalan hissəsi isə Təbriz qazisi Abdullah İbn Ömər İbn Məhəmməd Təbrizi Hüseyni tərəfindən qələmə alınmışdır (10, s. 28).

**4)** ***«Məkatib ya səvanihül-əfkari-Rəşidi»:*** Bu əsər F.Rəşiddəin tərəfindən yazılmış məktublar toplusu hesab olunur. F.Rəşidəddin bu məktubları vəzir olduğu illər ərzində (miladi 1327-1336/hicri 728-737) yazmışdır. Şəmsəddin Məhəmməd Əbrquhi bu məktubları bir yerə toplayaraq kitab şəklinə salmış, onu F.Rəşidəddinin oğlu Qiyasəddinin şərəfinə «Səvanihül-əfkar» adlandırılmışdır. Bu əsərdə əlli dörd məktub yer almışdır ki, onlardan dördü digər şəxslərdən F.Rəşidəddinə ünvanlanmış məktublar, qalan əlli məktub isə onun özü tərəfindən övladlarına (oğullarına), alimlərə və divan işçilərinə ünvanladığı məktublardan ibarətdir. Bu tarixi məktublar bəhs olunan dövrün ictimai-mədəni tarixinin işıqlandırılması baxımından xüsusi əhəmiyyət kəsb edir (11, s.1-4).

**18-“«Tarixi-Cahanqüşayi-Cüveyni»” (fars: تاریخ جهانگشای جوینی) - Ülaəddin Ətaməlik Cüveyni:** Elxanilər dövlətinin ilk dövrlərində yaşayıb-yaratmış tarixçi alim Ətaməlik Cüveyni (miladi.1225-1282/hicri.622-681) Xorasan əyalətində yerləşən Cüveyn məntəqəsində anadan olmuşdur. O, cavan yaşlarında Ərğun xanın sarayında divan işləri ilə məşğul olmuş, Ərğun xanla birlikdə bir neçə dəfə monqolların paytaxtı Qaraqorum şəhərinə səfər etmiş, monqollar barədə kifayət qədər geniş məlumat toplamaya bilmişdir. Bundan əlavə, ola bilsin ki, o, öz əsərini qələmə alarkən monqollardan eşitdiyi şifahi və yazılı məlumatlardan da istifadə etmişdir. Cüveyni 1256 (hicri 654)-cü ildə Ərğun vasitəsilə Hülaku xana təqdim edilmiş və Cüveyni onun da rəğbətini qazana bilmişdir. Onun 1257-ci (hicri 655) ildə yazdığı “Tarixi-Cahanqüşayi-Cüveyni” əsəri üç cilddən ibarətdir. Birinci cild Çingiz

*“Metafizika” Journal*
*2022, vol 5, number 1, serial 17, pp. 45-65*

xanın həyatına, həmçinin Çingiz xan yasası, Uyğur xalqının tarixi, Çingiz xanın Mavərəunnəhr və Xorasandakı fütuhatı, Xarəzmşahlar sülaləsinin süqutu, Oktay Qaan və Göyük hökmranlığının tarixinə həsr edilmişdir. Əsərin ikinci cildi Xarəzmşahlar, Qaraxanilər və monqol hökmdarlarının tarixini şərh edir. Üçüncü cild Menqu Qaan və Hülaku xanın Azərbaycan və İrana hücumları və İsmaililər tarixinə, yəni m.1257-ci (hicri.655)ilədək baş vermiş hadisələrin şərhinə həsr edilmişdir.

Əsər çox rəvan və sadə üslubda yazılılmışdır. Dövrün ilk yazılı mənbələrindən hesab olunan bu kitabda verilmiş məlumatlara, demək olar ki, başqa tarixi məxəzlərdə rast gəlmək olmur. Onun F.Rəşidəddin və Vəssaf kimi tarixçi alimlər tərəfindən yazılmış əsərlərə nisbətən üstünlüyü ondadır ki, müəllif monqolların vahid imperiya olduğu dövrdə yaşamış və həmin dövrdə baş vermiş hadisələri öz gözləri ilə müşahidə etmişdir. Həmin dövrdə Çingiz xan zəbt etdiyi ölkə ərazilərini hələ öz övladları arasında bölüşdürməmişdi. Müəllif bu əsərdə çalışmışdır ki, monqol imperiyasını bütöv şəkildə və böyük bir imperiya olaraq şərh etsin. Cüveyni Elxanilər hökumətinin siyasəti, məmur özbaşınalığı, şəhərlərin idarə edilməsi, ağır vergi siyasəti və digər məslələr ilə bağlı çox qiymətli məlumatlar vermişdir. Əsərin giriş bölümündə müəllifin İbn Xəldun sayağı Xarəzmşahlar sülaləsinin süqutu, həmçinin Çingiz xanın uğurlarına təsir edən ictimai-fəlsəfi fikir və şərhləri xüsusi əhəmiyyət kəsb edir (3, s.149-150).

**19-“Əl-həvadisül-camiə vət-təcarubün-nafiə fil-miətis-sabiə” (ərəb: الحوادث الجامعة و التجارب النافعة فى الماة السابعة) - İbn Əl-Fuvati (İbn Sabuni) (hicri 642-723/ miladi 1244-1323):** Kəmaləddin Əbdürrəzzaq Əhməd Bağdadi əslən Xorasanın Mərvur-rud bölgəsindəndir. O, hədis və tarix elmi ilə yanaşı, fəlsəfə sahəsini də mənimsəmişdi. Sözügedən alim Abbasilər sülaləsinin son xəlifəsinin dövründə Bağdadda dövlət işləri ilə məşğul olurdu. Bağdad şəhəri Hülakülər tərəfindən ələ keçirilən zaman İbn əl-Fuvati əsir götürülərək Azərbaycana gətirilmişdir. Nəsirəddin Tusi onu azad edərək öz yanına işə götürmüş və o, on üç il müddətinə Marağa rəsədxanasında təsis edilmiş kitabxananın müdiri vəzifəsində çalışmışdır. Sonralar o, Bağdada qayıdaraq Müstənsəriyyə mədrəsəsinin kitabxanasında müdir vəzifəsində çalışmışdır.(3, s.101-102; 12, s.12).

İbn Fuvati özünün zəngin təcrübəsi, dünya görüşü sayəsində özündən sonra çox qiymətli əsərlər qoyub getmişdir. Bu kitablardan biri də ərəb dilində yazılmış “Əl-həvadisül-camiə vət-təcarubün-nafiə fil-miətis-sabiə” əsəridir. Kitabda XIII (hicri tarixi ilə VII) əsrin hadisələri işıqlandırılmışdır. Amma təəssüflər olsun ki, dövrümüzə qədər gəlib çatmış nümunədə qeyd

edilən tarixdən 25 il əvvəl baş vermiş hadisələr barədə məlumatlara rast gəlinmir.

Əsərdə hadisələrin şərhi 1229-cu (hicri 626) ildən başlanır. Müəllif dövrün tanınmış alimləri, tarixçiləri və yazıçılarının həyat və yaradıcılığına dair qiymətli məlumatlar vermişdir. Müəllif eləcə də, həmin dövrün bir sıra ictimai məsələlərinə dair, o cümlədən məmur vəzifələri, qanunlar, tədris üsulları, mədrəsə və məscidlərin müxtəlif istiqamətlərdə fəaliyyətləri, karvansaralar, kitabxanalar, Abbasilər və Elxanilər sarayında tətbiq edilən rəsmi protokol qaydaları barədə mühüm məlumatlar təqdim etmişdir. Əsərdə həmçinin xristian və yəhudilərin həyat tərzi, "Tarixi-cahangüşa" əsərinin müəllifi Ataməlik Cüveyninin həyat və yaradıcılığına dair başqa mənbələrdə rast gəlmədiyimiz maraqlı məlumatlar da yer almışdır. Sözügedən əsər hicri tarixi ilə 1351 (miladi 1932)-ci ildə Bağdadda nəşr olunmuşdur (3, s.102).

**20-"Tarixi-fəthi Bağdad"**

**(ərəb: تاريخ فتح بغداد يا رساله «كيفيت واقعه بغداد») – Xacə Nəsirəddin Tusi:** Bu kitab N.Tusi tərəfindən "Chanagüşa" əsərinə qısa qoşma olaraq əlavə edilmiş bir kitabdır. Bu əlavə mətn "Cahangüşa" əsərinin bəzi nüsxələrinin sonunda mövcuddur və "Zeyli-Cahangüşa" adı ilə tanınmaqdadır. Bu risalə "Tarixi-Cahangüşayi-Cüveyni" əsərinin sonluq bölümü olaraq Əllamə Qəzvini tərəfindən təshih edilərək Avropada nəşr etdirilmişdir. Müəllifin bu risaləsi İranda, "Müqəddəm" jurnalında və "Sərgüzəşti-Xacə Nəsir" kitabının bir bölümü kimi də işıq üzü görmüşdür (13, s. 383).

**21-"Müxtəsərüd-düvəl" (ərəb: مختصرالدول)– Əbülfərəc Qriqorius ibn Əhrun ət-Təyyib əl-Məliti (İbn əl-İbəri kimi tanınır - vəfatı: hicri 685/ miladi 1286):** Marağada yaşamış və Yəqubi xrsitianlarından olan müəllif sözügedən bu əsəri ərəb dilndə qələmə almışdır. Əsər həmin müəllifin "Süryanilərin böyük tarixi" (Chronikcon Syriacum) əsərinin xülasəsi hesab olunur. Bu əsərdə Xarəzmşahlar, İsmaili və Monqol tarixi öz əksini tapmışdır.

**22-"Məsalikül-əbsar fi məmalikül-əmsar"**

**(ərəb: مسالک الابصار فی ممالک الامصار) – Şəhabəddin Əhməd ibn Yəhya ibn Fəzlüllah əl-Katib əd-Dəməşqi - vəfatı: hicri 749/ miladi 1348):** Bu əsər 20 cilddə qələmə alınmış və əsasən tarix və coğrafiya sahələrini özündə ehtiva edir. Müəllif bu əsəri hicri 738/ miladi 1337-ci ildə yazmışdır. Sözügedən əsərin 20 cildindən yalnzı 5 müxtəlif cildi Paris Milli Kitabxanasında saxlanılır. Baron de Salane Paris Milli Kitabxanasının "Ərəbdilli nüsxələr" siyahısında bu əsərlə bağlı yazır:

*"Coğrafiya, tarix və alimlərin avtobioqrafiyası sahəsində böyük ensiklopedik əsər Şəhabəddin əl-Ömərí (Əhməd ibn Yəhya ibn*

*Fəzlullah) əd-Dəməşqi tərəfindən yazılmışdır. Əsərin birinci cildi Paris Milli Kitabxanasında "Fonds arabe 2325" No-si ilə saxlanılır və üçüncü fəsli (bab) özündə ehtiva edir. Kitabın bu cildində Hindistan, Send, Çingiz xan və onun canişinlərinin imperatorluğu, Böyük xan imperatorluğu, Turan padşahları, İran, Gilan, kürd və lor sultanları, Kiçik Asiya, Qonstantiniyyə (indiki İstanbul), Misir və Şam türk sultanlarının tarixi keçmişi işıqlandırılmışdır"* (13, s.385-387).

**23-"Əl-Müxtəsəru fi tarixil-bəşər və ya əl-Müxtəsəru fi əxbaril-bəşər" (ərəb: المختصر فی تاریخ البشر یا المختصر فی اخبار البشر) – Əbilfəda, Suriyanın Həmat bölgəsinin şahzadəsi - vəfatı: hicri 737/ miladi 1336):** Sözügedən kitab barədə ətraflı məlumat əldə etmək üçün "Kəşfüz-zünun" əsərinə müraciət etmək lazımdır (13, s. 387).

**24-"Məsamirətül-əxbar və məsairətül-əxyar" (ərəb: مصامرة الاخبار و مسايرة الاخيار – Mahmud ibn Məhəmməd, Kərim Ağsarayi adı ilə tanınır):** Sözügedən sərə hicri 723/ miladi 1323-cü ildə qələmə alınmışdır. Bu kitab 1944-cü ildə Ankarada Dr.Osman Turan tərəfindən təshih edilərək nəfis nüsxədə çap olunmuşdur (13, s. 388).

**25-"Təcarübəs-sələf" (ərəb: تجارب السلف) – Hinduşah ibn Səncər ibn Abdullah Sahibi Naxçıvani):** Müəllif bu əsəri hicri 724/ miladi 1324-cü ildə "Əl-Fəxri"nin kitabını tərcümə və orada bir çox dəyişikliklər edərək Atabəy Nəsrəddin Əhməd ibn Yusifşahın adı və şərəfinə qələmə almışdır. Hinduşah Naxçıvanin iki cəhətdən Azərbaycan və Elxanilər hökumətinə bağlılığı olmuşdur: Birincisi, əslən Kiran şəhərindən (Təbriz ilə Beyləqan arasında yerləşən qədim Azərbaycan şəhəri), ikincisi isə Cüveyni xanədanına mənsub olması (13, s. 389).

**26-"Zübdətüt-təvarix" (ərəb: زبدة التواريخ) – Əbülqasim Abdullah Kaşani (ya Qaşani), Tarixi-Ulcaytu əsərinin müəllifi):** Qeyd etmək lazımdır ki, oxucular bu əsəri Hafiz Əbru tərəfindən yazılmış "Zübdətüt-təvarix" əsəri ilə səhv salınmamalıdır (13, s.389-390).

Göründüyü kimi, bəhs edilən dövrlərdə Azərbaycanın elm tarixini özündə əks etdirən kifayət qədər sanballı tarixi qaynaqlar ərsəyə gəlmişdir. Əgər barəsində məlumat verilən tarixi mənbələr Azərbaycanda elm tarixini araşdıran alimlərimiz tərəfindən daha geniş formada tədqiqat işlərinə cəlb edilərsə, müsəlman azərbaycanlılarının orta əsrlərdə elmin inkişaf etdirilməsi istiqamətində İslam mədəniyyətinə, ümumilikdə isə dünya sivilizasiyasına özünəməxsus töhfələr verdiyinə dair hərtərəfli və unikal məlumatlar əldə edilmiş olar. Qeyd etmək lazımdır ki, bu cür tarixi qaynaqların sayı onlarla və yüzlərlədir. Onların elmi tədqiqat işlərinə daha geniş formada cəlb olunması məsələsi isə bütün dövrlərdə olduğu kimi, bu gün də aktual mövzu

olaraq qalmaqdadır. Digər tərəfdən verilən məqalədən aydın olur ki, öz elmini inkişaf etdirmək məqsədilə İslam coğrafiyasının müxtəlif ərazilərində yaşamış bir çox azərbaycanlı alimlər əsasən ərəb və fars dillərində çoxlu sayda qiymətli elmi-tarixi əsərlər qələmə almışlar. Digər tərəfdən başqa xalqlara mənsub olan, amma öz əsərlərində bu və ya digər formada bəhs olunan dövrlərdə Azərbaycan tarixinə dair məlumat verən alimlərin də sayı də az olmamışdır. Azərbaycan tarixinin bir parçası hesab olunan bu alimlərin həyat və yaradıcılığını işıqlandırmaqla bəhs olunan dövrlərdə Azərbaycanda elm tarixi və tarixşünaslıq sahələrinin inkişaf səviyyəsini nisbətən geniş formada şərh olunmasının mümkün olduğunu düşünürük.

## ƏDƏBİYYAT

1. حسین نصر، (1399). علم و تمدن در اسلام، ترجمه احمد آرام، تهران، شرکت انتشارات علمی و فرهنگی، چاپ 7، ص 320
2. ذکرالله محمدی، (1373). نقش فرهنگ و تمدن اسلامی در بیداری غرب، انتشارات دانشگاه بین المللی امام خمینی، زمستان، 366 ص.
3. دکتر عزیزالله بیات، (1377). شناسایی منابع و مآخذ تاریخ ایران (ج ۱ و ۲)، موسسه انتشارات امیر کبیر، تهران، ص 3
4. براون، ادوارد. (1364). تاریخ طب اسلامی، ترجمه مسعود رجب نیا، تهران، علمی و فرهنگی، چاپ چهارم.
5. https://fa.wikipedia.org/wiki/صاعد_اندلسی
6.شمس‌الدین محمد بن محمود آملی، نفائس الفنون فی عرایس العیون، بتصحیح و پاورقی آقای حاج میرزا ابو الحسن شعرانی، انتشارات اسلامیه، جلد یکم، چاپ سوم، ۱۳۸۹ ش.، ۵۹۵ ص.، جلد دوم، 555 ص.، جلد سوم، 576 ص.
7. Эфендиев, И.К., (1969). Летопись науки в Азербайджане. (Естествознание), Академия Наук Азербайджанской ССР. Научный Совет по истории и теории науки, Баку: Элм
8. جعفریان، رسول، (1377). تاریخ ایران اسلامی (جلد سوم)- (از یورش مغول تا زوال ترکمنان)، تهران، موسسه فرهنگی دانش و اندیشه معاصر، ۳۵۲ ص.
9. دکتر عزیزالله بیات، (1377). شناسائی منابع و مآخذ تاریخ ایران (از آغاز تا سلسله صفویه)، موئسسه انتشارات امیر کبیر، تهران، ۳۹۹ ص.
10. رشیدالدین فضل‌الله بن ابی الخیر بن عالی الهمدانی، وقفنامه ربع رشیدی، به کوشش مجتبی مینوی وایرج افشار، سلسله انتشارات انجمن آثار ملی، تهران، ۲۵۳۶، ۳۸٦ ص.
11. رشیدالدین فضل‌الله همدانی، (1383). سرگذشت غازان خان- (تلخیص و بازنویسی بخش تاریخ مبارک غازانی از کتاب جامع التواریخ اثر رشیدالدین فضل‌الله همدانی)- تالیف قرن هشتم هجری- به کوشش: دکتر هاشم رجب‌زاده- موسسه فرهنگی اهل قلم- تهران- تابستان، ۱۴۱ ص.

12. Сеидбейли, М.Г. (1999). Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.). Баку: Çaşıoğlu, 139 с.
13. مرتضوی، منوچهر. (1358). مسائل عصر ایلخانان، تبریز، انتشارات موسسه تاریخ و فرهنگ ایران، ٥٤٤ ص
14. https://fa.wikipedia.org/wiki/%D8%A7%D8%A8%
15. https://az.wikipedia.org/wiki/%C4%B0bn_X%C9%99ldun

## Письменные источники по истории науки Азербайджана (X - XIV вв.)

**Эльхан Гулиев***

**Абстракт.** Всестороннее исследование и изучение истории науки Азербайджана зависит от наличия первоисточников и их привлечения к исследованию. Как известно, большинство источников по средневековой истории Азербайджана написано на арабском и персидском языках.

В статье мы попытались предоставить информацию об источниках, которые относительно больше освещают историю науки из этих письменных источников. Если исследовать эти источники подробно, то можно заметить, что исламский мир в IX - XIV веках был вершиной человеческой цивилизации. Объединение разных народов в единое государство и их взаимосвязь привели к бурному развитию наук и культур. Азербайджанский народ входит в число народов, внесших достойный вклад в исламскую культуру и эта реальность отражена в письменных источниках упомянутого периода.

**Ключевые слова:** Азербайджан, X-XIV вв., наука, история, письменные источники.

* Институт Истории Науки НАНА; Баку, Азербайджан
E-mail: elkhan2000@yahoo.com
https://orcid.org/0000-0002-9226-8877

**Цитировать статью:** Гулиев, Э., [2022]. *Письменные источники по истории науки Азербайджана (X - XIV вв.).* Журнал «Metafizika». № 1 (17), с. 45-65

***История статьи:***
*Статья поступила в редакцию: 16.12.2021*
*Отправлена на доработку: 03.01.2022*
*Принята для печати: 01.03.2022*

## Written sources about the history of science of Azerbaijan (X-XIV centuries)

**Elkhan Guliyev***

**Abstract.** All-round research and study of the history of science of Azerbaijan depends on the availability of primary sources and their involvement in research. As we know, most of the sources on the medieval history of Azerbaijan are written in Arabic and Persian languages. In the article, we tried to provide information about sources that provide relatively more coverage of the history of science from these written sources. If we examine these sources in detail, we will notice that the Islamic world in the IX-XIV centuries was the pinnacle of human civilization. The union of different peoples into a one state and their interconnection let to the rapid development of sciences and cultures. The people of Azerbaijan are among the peoples who have made a worthy contribution to Islamic culture, and this reality is reflected in the written sources written in the mentioned period.

**Keywords:** Azerbaijan in X-XIV centuries, science, history, written sources

## REFERENCES

1. Hossein Nasr, (1399). Elm ve Tamadon der Islam (7th ed.) (Ahmad, Aram Trans.). Tehran: Scientific and Cultural Publishing Company, p.320 (in Persian)
2. Zikrullah Mohammadi, (1373). Neqsheye Farhanqe ve Tamaddone Islami der Bidariye Gharb, Imam Khomeini International University Press, Winter, 366 p. (in Persian)
3. Dr. Azizullah Bayat, (1377). Shenasayiye Menabe ve Meakhze Tarikhe Iran (vols. 1 and 2), Tehran: Amir Kabir Publishing Institute, p.3 (in Persian)
4. Brown, Edward. (1364). Tarikhe Tebbe Islami (4th ed.) (Massoud Rajabnia Trans.). Tehran: Scientific and Cultural (in Persian)
5. https://fa.wikipedia.org/wiki/صاعد_اندلسی (in Persian)
6. Shamsuddin Mohammad Ibn Mahmoud Amoli (1389). Nafais Al-Fonun Fi Arais Al-Oyun (edited and footnote by Mr. Haj Mirza Abu Al-Hassan

* Institute of the History of Science; ANAS, Baku Azerbaijan
E-mail: elkhan2000@yahoo.com
https://orcid.org/0000-0002-9226-8877
**To cite this article:** Guliyev, E., [2022] *Written sources about the history of science of Azerbaijan (X-XIV centuries)*. "Metafizika" journal. № 1 (17), pp. 45-65

**Article history:**
Received: 16.12.2021
Accepted: 01.03.2022

Sha'rani). Islamic Publications. Vol. I, 3rd ed., 595 p.; Vol. 2, 555 p.; Vol. 3, 576 p. (in Arabic)
7. Efendiyev, I.K., (1969). Letopis' nauki v Azerbaydzhane. (Yestestvoznaniye), Akademiya Nauk Azerbaydzhanskoy SSR. Nauchnyy Sovet po istorii i teorii nauki, Baku: Elm (in Russian)
8. Jafarian, Rasool, (1377). Tarikhe Irane Islami (Vol. 3) - (Az Yureshe Moghol ta Zval Torkmenan). Tehran: Cultural Institute of Contemporary Knowledge and Thought, 352 p. (in Persian)
9. Dr. Azizullah Bayat, (1377). Shenasaiye Menabee ve Meakhze Tarikhe Iran (Az Aghaz ta Selseleye Sefeviyyeh), Amir Kabir Publishing Institute, Tehran, 399 p. (in Persian)
10. Rashid al-Din Fazlullah ibn Abi al-Khair ibn Ali al-Hamdani, Vaqfnameye Robe’Rashidi, be kusheshe Mojtaba Minavi ve Iraj Afshar, Tehran: National Works Association Publications Series, 2536, 386 p. (in Persian)
11. Rashid al-Din Fazlullah Hamedani, (1383). Sargozeshte Ghazan Khan (Telkhis ve Baznefisiye Bakhshe Tarikhe Mubarak Ghazani az Ketabe Came ut-Tevarikh asare Rashid al-Din Fazlullah Hamedani). Compiled in the eighth century AH, by Dr. Hashem Rajabzadeh. Tehran: Ahl Ghalam Cultural Institute, Summer, 141 p. (in Persian)
12. Seidbeyli, M.G. (1999). Nauchno-kul'turnaya zhizn' Azerbaydzhana (vtoroy poloviny XIII-тachalo XIV v.). Baku: Chashioghlu, 139 s. (in Russian)
13. Mortazavi, Manochehr., (1358). Mesaele Asre Ilkhanan. Tabriz: Publications of the Institute of History and Culture of Iran, 544 p. (in Persian)
14. https://fa.wikipedia.org/wiki/%D8%A7%D8%A8% (in Persian)
15. https://az.wikipedia.org/wiki/%C4%B0bn_X%C9%99ldun (in Azerbaijani)